

# Mir Cəlal PAŞAYEV: yazıçı, alim, pedaqoq...

***"Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz tərcümeyi-halının bir hissəsi kimi görünür. Canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir. Kitabı oxuyub örtdükdən sonra adama elə gəlir ki, özünün dünənki həyatını, həyəcan və sevinclərini sənə nağıl edən bir adamla bir neçə saat maraqlı söhbət etmisən...". Bu, sitatdır. Onun yaradıcılığındakı dərin səmimiyyətdən bəhs edən onlarca təndiqçi və ədəbiyyatşünasdan tək birinin qeydidir.***

**Bəli, onun mövzusu da, qəhrəmanları da real həyatdan gəlirdi. Elə ona görə də əsərlərində əvvəldən axıra qədər kəndə bağlı olan insanların surətləri əsas yer tutur, yazıçı öz taleyini onların taleyindən ayırmır, öz qəlbində onların ürəyinin, onların ürəyində öz ürəyinin döyüntüsünü hiss edirdi.**

Mir Cəlal Paşayev sözün əsl mənasında ziyalı, yazıçı, alim, maarifçi idi... O, ömrünün 48 ilini bu vacib, çoxlarının bacarmadığı, nadir istedadı və insanlığı ilə bəşəriyyətə, Azərbaycan milli mədəniyyətinə, ədəbiyyatına, xalqına xidmətdə olmuşdur...

Azərbaycan nəsrinə S.Rəhimov, M.İbrahimov, S.Rəhman kimi nəhəng sənətkarlarla birgə daxil olmuş, özünəməxsus, olduqca orijinal, yaradıcılıq siması, üslub, sənətkarlıq xüsusiyyətləri, dadlı-duzlu, mənalı hekayələri, mürəkkəb süjetli romanları ilə Azərbaycan ədəbiyyatı xəzinəsini zənginləşdirmişdir...

1932-ci ildə Mir Cəlal müəllimin "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı hekayə və oçerklər məcmuəsi, "Dirilən adam" romanı çapdan çıxır. Bir ildən sonra həmin roman rus dilinə tərcümə edilib çap olunur.

1937-ci ildə "Bostan oğrusu" hekayələr kitabı, 1939-cu ildə "Gözün aydın" kitabı, onu ədəbiyyat aləmində məşhurlaşdıran, hətta rus yazıçısı Dostoyevskinin "Polad necə bərkidi" romanı ilə müqayisə edilən "Bir gəncin manifesti" romanı, bir il sonra 1940-cı ildə "Açıq kitab" romanı nəşr edilir.

Ümumiyyətlə, Mir Cəlal müəllimin yaşadığı dövrdə 50-yə qədər bədii və elmi əsəri kitab şəklində oxucusuna təqdim edilib. Bu günə qədər isə böyük yazıçı-alimin 60-dan çox kitabı Azərbaycan bədii ədəbiyyatı, elmi sferası xəzinəsinin bəzəyi, dəyəri, bədii-estetik təfəkkürünün ölçüsü kimi işıq üzü görüb.

Təsadüfi deyildir ki, görkəmli tənqidçisi, akademik Məmməd Arif onun yaradıcılığının 30 illiyi münasibətilə yazmışdır: "Bir yazıçı kimi Mir Cəlal hər şeydən əvvəl Azərbaycan nəsrinin ən gözəl ənənələrinə əsaslanır. Nahaq deyil ki, C.Məmmədquluzadə və Ə.Haqverdiyev onun ən çox sevdiyi yazıçılardır. Bu ədiblərin çox dəqiq və həssas realizmi, xalq həyatı ilə sıx əlaqəsi, yüksək demokratizmi, sadə dili, incə yumoru və eyni zamanda sərt satirası, Mir Cəlalı bir nasir kimi dərindən maraqlandırır. Biz Mir Cəlalın əsərlərində milli nəsrimizin ən yaxşı nailiyyətlərini hiss edirik".

Görkəmli tənqidçi Mir Cəlal Paşayevi Mirzə Cəlillə, Ə.Haqverdiyevlə müqayisə etməklə, əslində bu böyük yazıçını həmin nəhəng sənət korifeyləri ilə bir sırada görmüş, onun yaradıcılığının, sosialist realizminə sığmayan cəhətlərinin mahiyyətini - demokratizmini, həssas realizmini, sərt satirik mahiyyətini açıqlamışdır.

Ədəbi tənqidçilərin haqlı olaraq qeyd etdikləri kimi, Mir Cəlal Paşayev yaradıcılığı heç bir çərçivəyə sığmamış, bütün arakəsmələri dağıtmış, həyatın sərt realizminə həmişə sadiq qalmış, yüksək demokratizmi və sərt həqiqətləri əks etdirməyi ilə fərqlənmişdir.

Ədib romantik olduğu qədər də Mirzə Cəlil və A.P.Çexovsayağı dadlı, duzlu, lirik, satirik, kəskin süjetli hekayə və novellaların da müəllifidir. O, Avropa novella janrını bütün Şərq incəliyi ilə Azərbaycan nəsrində yaradan, formalaşdıran, kamilləşdirən ilk sənətkar idi. "Həkim Cinayətov", "Mərifət dərsi", "Mərkəz adamı", "Təzə toyun nəzakət qaydaları", "Bostan oğrusu", "Anket Anketov", "Həpəndovun məqaləsi" və digər hekayələri təkcə Azərbaycan ədəbiyyatının deyil, dünya ədəbiyyatının klassik miniatür hekayə nümunələridir.

Mir Cəlal müəllim həm də klassik ədəbiyyatımızın tədqiqatçısı idi, bir tərəfdən Füzuli, o biri tərəfdən də XX əsrin başlanğıcındakı ədəbiyyatımız, ilk növbədə Mirzə Cəlil, Sabir, Ə.Haqverdiyev, Nəriman Nərimanov, Məhəmməd Hadi və başqaları... O, ayrı-ayrı mərhələlərlə yox, böyük ədəbiyyatla məşğul olduğu üçün, eyni zamanda çox güclü fəhminə görə sənətdə müasirliyi müasir ədəbiyyat üzrə "ixtisaslaşmış" bir çox ədəbiyyatşünas və tənqidçilərdən daha artıq duyur və qiymətləndirməyi bacarırdı.

Mir Cəlal müəllimin bədii yaradıcılığı kimi, elmi, pedaqoji fəaliyyəti də məhsuldar olub. Onun pedaqoji fəaliyyətinin xüsusiyyətləri Azərbaycan maarifçiliyinin, pedaqoji fikir tarixinin ən dəyərli, qiymətli tarixi faktlarındandır.

O, onlarca alim, müəllim, pedaqoq, jurnalist, ziyalı yetişdirmişdir. Maraqlı cəhət budur ki, böyük ədib ömrü boyu pedaqoji fəaliyyətindən uzaqlaşmamışdır. 30-cu illərdən 80-ci illərin əvvəllərinə qədər Azərbaycanın ziyalılar nəslinin formalaşmasında digər həmkarları ilə birlikdə yorulmadan çalışmış, Azərbaycan elmi fikrinin ən görkəmli şəxsiyyətlərinin formalaşmasında fəal iştirak etmişdir.

Bir çox klassik və müasir sənətkarların yaradıcılıq xüsusiyyətlərinin dərindən öyrənilməsində, ədəbiyyat tariximizə dair ciddi tədqiqat əsərlərinin yazılmasında, elmi-tənqidi fikrimizin düzgün inkişafında Mir Cəlal müəllimin böyük xidmətləri olmuşdur.

Onun "Azərbaycan ədəbiyyatı tarixi" kitabına yazdığı elmi oçerklər, "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyi, "Ədəbiyyatşünaslığın əsasları" kitabı Azərbaycan ədəbiyyatı elminin nadir nümunələrindəndir. Mir Cəlal müəllimin "Azərbaycan ədəbiyyatında realizmin müəyyənləşməsi və inkişafı haqqında" elmi-nəzəri əsəri Azərbaycan ədəbiyyatşünaslığında ədəbi metod və üslub istiqamətində aparılan ilk monumental əsərlərdən biridir. Xüsusən alimin dahi Məhəmməd Füzuli ədəbi irsinə həsr etdiyi silsilə tədqiqat materialları və onun çox ciddi axtarışlarının, nəzəri fikrinin məhsulu olan "Füzulinin poetik xüsusiyyətləri" və son olaraq "Füzulinin sənətkarlığı" (1958) kitabları Azərbaycan füzulişünaslığının əsas sütunlarından birini təşkil edir.

Mir Cəlal Paşayev təkcə Azərbaycanda deyil, o vaxtkı İttifaq miqyasında, onun hüdudlarından kənarda da tanınmış bir ədib, alim, pedaqoqdur. Onun bir sıra əsərləri o dövrkü İttifaq respublikalarında yaşayan xalqların, demək olar ki, əksəriyyətinin dillərinə tərcümə olunmuş və yayılmışdır. Ədibin əsərlərinin çoxu rumın, bolqar, fransız, çex, slovak və başqa xarici dillərdə nəşr olunmuş, həm müəllifinə, həm də Azərbaycan ədəbiyyatına şöhrət gətirmişdi...

Mir Cəlal müəllim tələbələrinin sevimlisi olan pedaqoqlardandır...

*Xalq şairi, Prezident təqaüdçüsü Nəriman Həsənzadə:* "Mir Cəlal Paşayev fransız maarifpərvər və yazıçılarından Volter, Didro, Jan Jak Russo kimi insanlarla müqayisə oluna biləcək bir şəxsiyyətdir. Müdriklər deyiblər ki, kamil insan, alim, yazıçı dünyanı təkcə izah etmir, eyni zamanda onu dəyişdirir, insanların şüurlarına, baxışlarına təsir edə bilir. Bu mənada Mir Cəlal müəllimin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, eyni zamanda özündən sonra gələn nəsillərə də örnəkdir".

*Xalq yazıçısı Elçin:* "Mir Cəlal müəllim auditoriyaya girəndə əzəmətli bir pedaqoq təsiri bağışlayırdı. Ona görə ki, onun mənəvi dünyası əzəmətli idi, onun yaradıcılığı, daxilindəki xeyirxahlıq əzəmətli idi. Xoşbəxt yazıçı idi, ona görə ki, sovet sisteminə deyil, ədəbiyyatına xidmət edirdi. Bugünkü oxucuların, müstəqil Azərbaycan vətəndaşlarının psixologiyası və tələbləri fərqli olsa da, Mir Cəlalın əsərləri indi də sevilə-sevilə oxunur. O, həm də xoşbəxt ədəbiyyatşünas alim idi. Ədəbiyyatşünaslığın sovet ideologiyasının tərkib hissəsi olmasına baxmayaraq, Mir Cəlal yenə də sistemə deyil, Azərbaycan ədəbiyyatının tarixinə xidmət edirdi. O, həm də xoşbəxt pedaqoq idi. Çünki pedaqoji fəaliyyətini komsomol və partiya ideologiyasına deyil, Azərbaycan xalqı üçün gərəkli oğullar yetişdirməyə həsr etmişdi...".

*Mir Cəlalın daha bir tələbəsi Xeyrulla Əliyev:* "...İndi qəribə görünsə də, o dövrdə ali məktəblərdə dərsə davamiyyət jurnalları rus dilində yazılırdı. Bu səbəbdən də "Əliyev" soyadı "Aliyev" olurdu. Sanki buna etiraz əlaməti olaraq Mir Cəlal müəllim də, Məmmədhüseyn Təhmasib də, Abbas Zamanov da auditoriyada heç kimin adını həmin jurnaldan oxumaz, tələbələrindən kimin gəlmədiyini qrup nümayəndəsindən soruşardılar. Mir Cəlal müəllim elə sadə danışırdı ki, mən onun mühazirəsini yazmağa ehtiyac duymurdum, eyni zamanda elə fikirlər söyləyirdi ki, onları yazmaya bilmirdim. Mir Cəlal müəllimin fikrincə, hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər. O, tələbələri yaradıcılığa ruhlandırırdı. Biz onun dərslərini səbirsizliklə gözləyirdik...".

*Əməkdar mədəniyyət işçisi Nahid Hacızadə:* "Biz o uzaq illərin tələbələri hərdən görüşüb, bir yerə yığışanda istər-istəməz müəllimlərimizdən söz salır, hörmət və ehtiramla onları xatırlayırıq. Bu sırada Mir Cəlal müəllimin ayrıca yeri, istək mərtəbəsi var... Fikrimizdə hamımızın eyni vurğu ilə dilə gətirdiyimiz sözlər qanadlanır: "Ürəyinə ürək çatmazdı, bir işıq idi, Mir Cəlal müəllim".

Ötən əsrin 30-cu illərindən üzü bəri nəhəng bir sənətkarın, müdrik müəllimin, alimin yaradıcılığı parlaq şölə kimi ədəbiyyatımızı, mədəniyyətimizi, milli Azərbaycan bədii fikrini işıqlandırmaqdadır. O işıq isə heç zaman sönməyəcək...

**Zümrüd QURBANQIZI,**
**"Respublika",**